www.sesqazeti.az

facebook Ses Media Holding

səs

# "Ulu Öndər Heydər Əliyevin ömür yolu Azərbaycan tarixinin şərəfli bir hissəsidir"

## *YAP Samux rayon təşkilatı bu mövzuda tədbir keçirib*



Yeni Azərbaycan Partiyası Samux rayon təşkilatında Ümimmilli Lider Heydər Əliyevin anadan olmasının 95 illiyi münasibəti ilə "Ulu Öndər Heydər Əliyevin ömür yolu Azərbaycan tarixinin şərəfli bir hissəsidir" mövzusunda gənclərin iştirakı ilə elmi-praktik konfrans keçirilib.

Tədbiri giriş sözü ilə açan YAP Samux rayon təşkilatının sədri Gündüz Bayramov qeyd edib ki, Ulu Öndərin zəngin və möhtəşəm dövlətçilik fəaliyyətində gənclər siyasəti hər zaman xüsusi yer tutub. "Azərbaycan gənclərinin günümüzün müasir, inkişaf etmiş, yüksək intellektli qüvvə kimi formalaşmasında Ulu Öndərin böyük əvəzedilməz xidmətləri olub"-deyə qeyd edən G.Bayramov bildirib ki, müasir Azərbaycan gəncliyi Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu uzaqgörən və məqsədyönlü gənclər strategiyasına sadiqdir.



Tədbirdə YAP Samux rayon təşkilatının gənclər birliyinin üzvləri Qurban Həsənov, Xədicə Qasımova, Emin Şəmmədov, Ülviyyə Salmanova, Raminə Həsənova, Jalə Salmanova və Tərifə Verdiyeva cıxış edərək vurğulayıblar ki, Azərbaycan gənclər ölkəsidir. "Əhalinin 66%-i gənclərdir"-deyə qeyd edən çıxışçılar bildiriblər ki, elmi-texniki tərəqqinin sürətlə inkişafında gənclər öz izlərini qoyur: "Azərbaycan gəncləri ölkəmizdə gedən mədəniyyət, incəsənət, elm və təhsil sahələrində böyük uğurla irəliləyərək, zəngin milli-mədəni irsimizin qorunub-saxlanılmasında, inkişaf etdirilməsində özünü göstərir. Gəncləri təhsil almağa, oxumağa çağıran Heydər Əliyev öyrədirdi ki, dünyada mövcud olan bütün elmlərə yiyələnmək mümkün deyil, lakin vətənini sevən gənc mütləq iki elmi mükəmməl öyrənməlidir".

Tədbirin sonunda YAP Samux rayon təşkilatının şura üzvləri Rəşad Qarayev və Rahil Həsənov çıxış edərək bildirdilər ki, düşmənə qarşı barışmaz olmaq üçün Vətəni candan sevmək lazımdır. İndiki gəncliyin qarşısında əsas vəzifə - müstəqilliyimizi qorumaq, ərazi bütövlüyümüzü qorumaq və bərpa etməkdir. Ulu Öndər Heydər Əliyev ideyalarının layiqli davamçısı Ölkə Prezidenti İlham Əliyevin apardığı uğurlu daxili və xarici siyasət Azərbaycanın aydın səhərlərindən xəbər verir. Bütövlüyü pozulmuş torpaqlarımızı yenidən qaytarmaq üçün Heydər Əliyev ideyaları ilə möhkəm silahlanmalıyıq.

***Afət TAHİRQIZI***